2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü İlham Məmmədov Mərkəzi Seçki Komissiyasına daxil olmuş 2 yanvar I 2020-ci il tarixli 03 saylı müraciəti üzrə

RƏYİ

Bakı şəhəri                                                    5 yanvar 2020-ci il

2020-ci il fevralın 9-da namizədliyi öz təşəbbüsü ilə 45 saylı Abşeron seçki dairəsi üzrə irəli sürülmüş Musayev Ceyhun Musa oğlu Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək onun namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə dairə seçki komissiyasının 35/464 saylı 31 dekabr 2019-cu il tarixli qərarını mübahisələndirmiş və müvafiq qərar qəbul edilməsi yolu ilə özünün pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Mən, ekspert qrupunun üzvü İlham Məmmədov həmin müraciəti araşdırarkən aşağıdakıları müəyyən etdim:

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən tərəfimdən araşdırmaya qəbul edilmişdir.

Namizəd C.M.Musayev müraciətində qeyd etmişdir ki, 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 45 saylı Abşeron seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş, həmin seçki dairəsinin ərazisində seçicilərin imzası toplanılaraq imza vərəqələri və ona əlavə edilmiş digər seçki sənədləri dairə seçki komissiyasına təqdim edilmiş, namizədin gəlirlərinin miqdarı və mənbələri barədə məlumat düzgün təqdim etmədiyinə görə dairə seçki komissiyasının müvafiq qərarı ilə namizəd kimi qeydə alınmasından imtina edilmişdir.

Dairə seçki komissiyası namizədliyi irəli sürülmüş C.M.Musayevin namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə qərarını onunla əsaslandırmışdır ki, imza vərəqələri və onlara əlavə edilmiş sənədlər dairə seçki komissiyasına təqdim olunarkən Seçki Məcəlləsinin 58.1.4-cü və 60.2.3-cü maddələrinin tələbləri pozulmuş, namizədin gəlirlərinin miqdarı və mənbələri barədə məlumat düzgün təqdim edilməmişdir.

Araşdırma ilə əlaqədar ərizəçi ilə əlaqə saxlanılmış, ona hər hansı sənəd və materiallar təqdim etmək, araşdırma və iclasda iştirak etmək, digər hüquqlarının olması izah edilmiş, iclasın vaxtı barədə məlumat verilmiş, Mərkəzi Seçki Komissiyasının iclasında iştirakı təmin edilmişdir.

Dairə seçki komissiyasının mübahisələndirilən qərarı, seçki sənədləri və digər materiallar araşdırılarkən müəyyən edilmişdir ki, C.M.Musayev namizədliyinin qeydə alınması üçün 25 dekabr 2019-cu il tarixdə imza vərəqələri və digər seçki sənədlərini dairə seçki komissiyasına təqdim etmiş, komissiya həmin sənədləri araşdırmış, namizədin gəlirlərinin miqdarı və mənbələri barədə aparılmış araşdırma üzrə düzgün hüquqi nəticəyə gəlməmiş və namizədin qeydə alınmasından əsassız olaraq imtina etmişdir.

Qeyd edilənlərə əsasən şikayətin təmin edilməsi və dairə seçki komissiyasının mübahisələndirilən qərarının ləğv edilməsi üçün hüquqi əsaslar yaranmışdır.

Belə ki, göstərilənlərə əsasən şikayət əsaslı olduğundan təmin edilməli, namizədliyinin qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının 31 dekabr 2019-cu il tarixli 35/464 saylı qərarı ləğv edilməli, C.M.Musayevin həmin seçki dairəsindən deputatlığa namizədliyi qeydə alınmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Seçki Məcəlləsinin 112-ci, 112-1-ci, 147.1-ci, 148.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat" ın 1, 2, 4, 6 və 7-ci hissələrinə əsasən **r ə y ə   g ə l d i m**:

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 45 saylı Abşeron seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Musayev Ceyhun Musa oğlunun 2 ynvar 2020-ci il tarixli 03 saylı müraciəti əsaslı olduğundan təmin edilməli, dairə seçki komissiyasının 31 dekabr 2019-cu il 35/464 saylı qərarı ləğv edilməlidir.
2. 45 saylı Abşeron seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Musayev Ceyhun Musa oğlunun həmin seçki dairəsindən namizədliyi qeydə alınmalıdır.
3. Rəy qəbul ediıdiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü                                        İlham Məmmədov